




Turan Uğur
AYB-nin üzvü

# Əbədilik missiyası

## (Unudulmaz insan, şair, Ali Sovetin deputatı, ictimai xadim Cavid Salman oğlu Axundovun işıqlı xatirəsinə ithafən)

***25 yanvar 2000-ci il...Ayrılığın son duracağı...Zamanın idbar sifəti ilə üzümüzə bozardığı, diş qıcadığı, adidən adi bir qış günü Cavid Axundov kimi insanın elegiyasını əlacsız, naçar, candərdi şəkildə oxuyurdu.Yasamal rayonu, Məmməd Rahim küçəsi -20 ünvanının siyaha büründüyü, qara rəngə boyandığı məlum tarixçə hər kəsə məyusluq libası geydirmişdi.Həmin günlər qəzet səhifələrini "zəbt edən" Cavid Axundovun vəfatına üzülən dostların, qohumların bədbin yazıları ard-arda sıra-***



***lanmaqda davam edirdi.İctimai xadim, vaxtilə bir sıra dövlət vəzifələrində bulunmuş Sadıq Murtuzayevin "Dostlarımız seyrəlir!" yazısındakı ilk sətirlərdəcə ürəyimizi sızladan kövrək cümlələrin 26 illik hüzn havası bu sayaq qoxumaqdadır.***

Belə başlayırdı o sərt rüzgarların canyandıran, ürəkodlayan sətirləri:

-"Seyrəldikcə qəlbimizdə boşluq yaranır.İllərin dost sınağından, bütöv şəxsiyyət sınağından keçmiş adamlarımızı itirdikdə sarsıntılarımız bizi elə çulğalayır ki, xeyli vaxt özümüzə gələ bilmirik.Və bu itki qəfləti olanda ürəyimiz az qalır ki, yerindən oynasın.Cavid Salman oğlu Axundovun itkisi qarşısında mən belə bir ovqat keçirtdim.Onun məzarı üstündə söz demək lazım gəldikdə şair Məmməd Rahimin aşağıdakı misraları dilimə gəldi:

**Yarat, sən köçəndə ellər söyləsin,**
**Dünyadan nə gözəl bir insan gedir!**

40 ilə yaxın müddətdə Cavid əmi ilə dostluq eləmiş, hətta şeir kitablarını çıxartmaqda rol oynamış Sadıq Murtuzayevin – o nəhəng kişinin sarsıntılı hisslərini bu dəm yaxşı anlayıram. Cavid Salmanoğlunun həyatı haqqında öncələr yazdığım "Cavidanlıq qazanan Cavid Axundov" essesində müfəssəl məlumat verdiyim üçün bu dəfə yalnız ayrı-ayrı həyati məqamlara, ömür ştrixlərinə diqqət yetirməyə çalışacam.

Cavid müəllim türkçülük naminə, bütöv Azərbaycan eşqinə həmişə danışmışdı, həmişə yazmışdı.Hətta 1990-cı ildə Ali Sovetin deputatı seçildikdə 23 sentyabr 1990-cı il "Abşeron" səhifəsindəki müsahibə-reportajdan da oxuyuram.Xatırladım ki, həmin müsahibəni Cavid müəllimdən Abdul Haşım almışdı:

Cavid əminin fikirlərinə bir daha tanıqlıq edirik.Deputat seçilən əsnada aparılan bu müsahibəsində deyirdi:

-"Azərbaycan Demokratik Respublikasının ərazisi 119 min kvadratkilometr olmuşdur.İndi isə cəmi 86.5 min kvadratkilometrdir.Mən əvvəlki ərazimizin yenidən doğma xalqımıza qaytarılıb bərpa olunması tələbini irəli sürülməsi ilə tamamilə şərikəm və bu ideyanın həyata keçirilməsinə var qüvvəmi sərf edəcəyəm"

Cavid Axundov bu haqlı fikirlərini həmişə səsləndirib.O, təpədən-dırnağa milli insan idi.

Aşıq Alı sinəsindən, Dədə Ələsgər bağrından qopmuş, şeirlərini ozanlarımızın təsiri ilə yazmış insan necə olmalı idi ki?!

***Jurnalistin "namizədlik platformanızda hansı məsələlərin həlli əsas yer tutur?" sualına Cavid müəllimin cavabı belə olur:***

***-"Azərbaycanın real suverenliyinə, iqtisadi və siyasi müstəqilliyinin təmin olunmasına nail olmaq"***

***Bu qəlb etirafları təkcə onun sözlərini, həyata baxışlarını deyil, həm də Cavid Axundovun xeyirxah əməllərini müzəyyən edirdi. Bəzəyirdi, özü də necə bəzəyirdi. Ölkəmizi azad, abad görmək uğrunda onun çabaları lap keçmişdən sərin əsintilərlə dəmadəm qarşımıza çıxır.Cavid müəllimin xeyirxahlığı, el-obaya yaxşılıqları bu gün də kölgəmizə dönüb bizi izləyir. Məxsusən, Xırdalan, Hökməli, Novxanı camaatından o qədər insanla rastlaşıram ki, hamısı eyni avazla, eyni ağızla deyir ki:***

- "Cavid müəllim nə gözəl insan idi.Bizə ev-eşik düzəltdi, rəhbərlik etdiyi Xırdalan Quşçuluq fabirikində bizə iş verdi, əlimizi çörəyə çatdırdı"

Gerçəkdən də əli hər şeydən üzülmüş insanları çörəyə, ruziyə çatdırmaq Cavid Axundovun həyat kredosu idi.

Axı Respublika ilə bərabər nüfuzu vardı Cavid kişinin, adı ölkənin sərhədlərini



aşırdı.Səbəbsiz deyildi: yüksək bacarığı, səriştəsi, təşkilatçılığı haqqında Sadıq Murtuzayevin başqa bir xatriəsini səhifələmək olar, olar nədir, bu saat labüddür, müstəhəb yox, vacibat hökmündədir:

Sadıq Murtuzayev:

-"Bir dəfə MK-nın 2-ci katibi Pyotr Matveyeviç Yelistratovla (1961-68-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi işləmişdi) fabirkdə olduq.Katib istehsatla tanış olub onunla söhbətdən sonra maşına əyləşdikdə üzünü mənə tutub "Bəs biz xeyli vaxtdır kənd təsərrüfatı naziri axtarırıq.Bəs niyə demirsən ki, bizdə belə bir kadr var.Onun şəxsi işini mənə çatdır".

Mən sevinclə bunu Cavidə deyərkən o, məndən təkidlə xahiş etdi ki, Yelistratovu bu fikirdən yayındırım.Mən də çətinliklə buna nail oldum.Belə təkliflər çox olmuşdu.Cavid vəzifə, şöhrət düşkünü deyildi, lazımi şöhrəti elə işlədiyi kollektivdə qazanmış, bu sadə vəzifəsində 30-40 il daim rayon sovetinin, Ali Sovetin deputatı, raykomun üzvü, onun büro üzvü seçilmiş, xarici nümayəndəliklərdə təmsil olunmuşdu"

Sadıq müəllimin bu xatirələri yazdıqlarımı təsdiqləməklə birgə, həm də Cavid Salmanoğlu portretini göz önündə bulundurur.Necə zərif naxışlarla bəzənib o porterin cizgiləri, necə ilmə-ilmə toxunulub, naxış-naxış hörülüb, ilahi?! Həyatda da incə insan idi Cavid əmi, çox yeməklə arası yox idi, amma çay içməyi çox sevirdi.Zərif yumordan xali deyildi. Əsasən Həşim Qərvəndi və Böyükkişi Ağayevlə zarafat edərdi.Dostluq şarjları yazardılar bir-birilərinə.

Cavid müəllim dostcanlı idi.Özü üçün heç vaxt nəsə xahiş eləməzdi, amma dost sandığı insanlar üçün canını belə verərdi.Yenə Murtuzayevin xatirələri Cavid Axundov nəcibliyini gün işığına çıxarır:

-"Cavid dost qədri bilməkdə əvəzsiz keyfiyyətlərə malik idi.Bir epizod onun dostluğuna nümunə kimi yaddaşımda qalıb.Ağdamda işlədiyim zaman onun tələbəlik illərinin bir dostunu büronun qərarı ilə işdən çıxarmışdıq.Ertəsi gün səhər tezdən Cavid Ağdama gəlir və uzun illər ərzində məndən demək olar ki, heç bir təmənnası olmayan Cavid həmin dostunu yerinə qaytarmağı xahiş edir və mən də raykom katibi işlədiyim 30 ildən çox müddətdə ilk dəfə büronun qərarını bir gündən sonra dəyişməli oldum.Məni buna vadar edən ilk növbədə onun dost fədakarlığı idi"

Gerçəkdən də dostluqda möhkəm idi Cavid əmi.Ömür-gün yoldaşı Firəngiz anadan həmin şəxsin kim olduğunu öyrəndim: Dedi ki:

-"Famil idi adı, Ağdamlı idi. Yeniyetməlikdən bir qarın ac, bir qarın tox birgə böyümüşdülər.Çox sınaqlardan çıxmışdılar.Hətta Cavid müəllimin vəfatından 40 gün keçməmiş Familin də vəfat etməsi bizi çox həyati mətləblərdən hali edir.

Cavid müəllimin Qarabağımız işğal altında ikən yanğılı həsrətli şeirləri ilə yanaşı, Güney, Təbriz eşqində qovrulan poeziya nümunələri bəs qədərdir.

**Hələ düşməndədir elim, obam da,**
**İntiqam alovu yanır sobamda.**
**Yeni pərvazlanan halal yuvamda,**
**Bir cüt tərlanım var, naxışlarım var.**

Bir cüt tərlan deyəndə, oğlanları Kamil və Cəmili nəzərdə tutan şair digər övladlarını da canından artıq sevərdi.Qalibi, Salmanı, Nərgizi, Səadəti və sonbeşikləri Kamil və Cəmili.Uzun illərdir Almaniyada yaşayan Kamil də, İngiltərədə məskunlaşan Cəmil də Cavid Axundovun layiqli balalarıdır.Digər övladları Nərgizlə, Səadətlə də söhbətləşəndə sözümüz-sovumuz ancaq Cavid müəllimin



həyatından olur.Memar Əcəminin şah əsəri Möminə Xatun türbəsinin üzərində yazılan bu misralar necə də Cavid müəllimə yaraşır.

**"Biz gedirik yalnız qalır ruzigar,**
**Biz ölürük əsər qalır yadigar"**

Dörd şeir kitabı ilə yanaşı Cavid Axundovun əsərləri həm də onun övladları, nəvələridir. Nizaminin bu yaxınlarda keçirilən nişan mərasimi, nəvəsinin sevincli, şadxürrəm dəqiqələri yəqin ki, Cavid əminin ruhuna agah olmamış deyil.

***Görünür əbədilik missiyasının düsturu bu qədər sadədir: Yaddaşlarda qalan xeyirxah bir ömrü başa vursan, vəfatından sonra da adın, xatirələrin səni yaşadacaq.Adının haqqını verənlərin taleyinə bu mənada min "əhsən!" düşür.Ötən il 95 illik yubiley ilində də Cavid Axundov ruhuna yüzlərlə insan "dua qıldı", ünvanına dəfələrlə "salavat çevrildi".Yaxşı insanlar Cavid Salmanoğlunu xatırladı, haqqında esselər, oçerklər yazıldı, radioproqramlar hazırlandı.Ötən ilin yanvarında "Mədəniyyət" kanalının efirində "Təqvim" rubrikasında yada salındı.Haqqsay itirməyənlər, qədirbilənlər bütün ilboyu Cavid müəllimi xoş xatirələrlə xatırladılar...***

**(ardı gələn sayımızda)**